**Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin müvafiq sərəncamı ilə yaradılmış Püşkatma komissiyasının iclasının**

# P R O T O K O L U

**Bakı şəhəri** **№ 1** **11 sentyabr 2020-ci il**

**İştirak etdilər:**

**İclasın sədri:** Səbuhi Gülməmmədov
**İclasın katibi:** Rövşən Cəfərli

**Komissiyanın üzvləri:** Altay Cəfərov, Nazim Axundov, Elnur İbrahimov, Nəcəf Talıbov, Nigar İsmayılova, Vasif Cavadov, Vəli Kərimov.
**Komissiyanın müfəttişləri:** Yaşar Məmmədov, Naib Yusifov, Səftər Vəlizadə, İlham Hacı-Əzizov, Nihad Axundov, Üzeyir Fətiyev, Namiq Abbaslı, Aygün Səfərova, Elzadə Süleymanova, Səməd İsgəndərov, Vəli Rəhimov.

**Gündəlik**

**Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin operativ monitorinqinin həyata keçirilməsi barədə**

**Çıxış etdi** – Auditorlar Palatasının icraçı direktoru (S.Gülməmmədov) çıxışında Palatanın auditor xidməti bazarında şəffaflığın artırılması, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması, keyfiyyətsiz auditor xidmətinin göstərilməməsi və auditə ictimai etimadın gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirdiyini və həmin neqativ hallara qarşı mübarizəni qanunvericilik çərçivəsində davam etdirmək əzmində olduğunu bildirdi. Sonra S.Gülməmmədov bir sıra auditorlar tərəfindən istər maliyyə hesabatlarının auditi, istərsə də digər əlaqəli xidmətlər göstərilən zaman ölkə qanunvericiliyinin, Beynəlxalq Audit Standartlarının, Auditorların Peşə Etika Məcəlləsinin, İFAC-ın mövcud normaiv sənədlərinin tələblərinə riayət edilməməsi səbəbindən göstərilən auditor xidmətinin keyfiyyəti aşağı olduğundan müvafiq dövlət qurumlarından, iş adamlarından və Palatanın üzvlərindən daxil olan müraciətlərin sön dövrlərdə artdığını qeyd etdi. S.Gülməmmədov bütün bu neqativ halların qarşısının alınmasını nəzərə alaraq,

Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitə tərəfindən “Auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar”a təklif olunan dəyişikliklərə müvafiq olaraq Palatanın üzvləri olan auditor təşkilatları və sərbəst auditorların apardıqları auditlərin operativ monitorinqinin həyata keçirilməsi məqsədilə Palata sədrinin 2020-ci il 10 sentyabr tarixli 1/27 nömrəli sərəncamı ilə Püşkatma komissiyası yaradılmışdır və həmin komissiyanın müfəttişləri tərəfindən aparılan monitorinqlərin nəticələrinə uyğun olaraq auditor təşkilatları və sərbəst auditorların apardıqları auditin nəticələri qiymətləndirilərək yeni qaydalarda nəzərdə tutulmuş dörd təsnifat qrupundan birinə aid ediləcəyi, keyfiyyət göstəriciləri aşağı olan auditor təşkilatlarına və sərbəst auditorlara auditor xidməti göstərməsinə dair müəyyən məhdudiyyətlərin tətbiq ediləcəyi barədə iştirakçıları məlumatlandırdı.

**Çıxış etdilər** – İclas iştirakçıları auditor xidməti bazarında şəffaflığın artırılması, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması, keyfiyyətsiz auditor xidmətinin göstərilməməsi və auditə ictimai etimadın gücləndirilməsi istiqamətində bu qəbildən tədbirlərin davam etdirilməsini məmnuniyyətlə qarşıladıqlarını və bu istiqamətdə operativ monitorinqlərin həyata keçirilməsində fəal iştirak edəcəklərini bildirdilər.

İclas iştirakçıları gündəlikdəki məsələnin nəticəsini müzakirə edərək

**Q Ə R A R A   A L I R :**

1. Püşkatma komissiyasının üzvləri tərəfindən aparılmış püşkatmanın nəticəsinə uyğun olaraq qruplar və həmin qruplar üzrə monitorinqi həyata keçirəcək müfəttişlər təsdiq edilsin.
2. Operativ monitorinqi aparılacaq auditor təşkilatları və sərbəst auditorlara məlumatlandırma məktubları hazırlanaraq elektron poçt ünvanlarına göndərilsin.
3. Müfəttişlərə tapşırılsın ki, qruplar üzrə monitorinqləri 2020-ci il dekabr ayının 1-dək yekunlaşdırsınlar və nəticələri barədə Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitəni məlumatlandırsınlar.
4. İclasın protokolunun və qruplar üzrə təyin olun olunmuş müfəttişlərin siyahısının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**İclasın sədri:** **Səbuhi Gülməmmədov**

**İclasın katibi:** **Rövşən Cəfərli**